

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 219 (21.371)

7 noyabr 2015-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika



Noyabrın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstan parlamentinin sədri David Usupaşvili ilə görüşü olub.

Görüşdə David Usupaşvili Gürcüstana rəsmi səfəri çərçivəsində parlamentə gəldiyinə görə deputatlar adından Azərbaycan dövlətinin başçısına minnətdarlığını bildirib. David Usupaşvili Prezident İlham Əliyevin təkcə regionun deyil, dünyanın nüfuzlu şəxsiyyətlərindən biri kimi Gürcüstana rəsmi səfərindən şərəf duyduqlarını vurğulayıb.

Prezident İlham Əliyev Gürcüstan parlamentinin sədri ilə Bakıda keçirdiyi görüşləri xatırlayıb. Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin ən yüksək səviyyədə olmasını prezidentlər tərəfindən imzalanan Birgə Bəyannamənin bir daha təsdiq etdiyini vurğulayıb. Bizim əlaqələrimizin təməlində xalqlarımızın bir-birinə olan hörməti, rəğbəti dayanır, – deyən Prezident İlham Əliyev siyasi, iqtisadi, sosial və humanitar sahələrdə Gürcüstan ilə Azərbaycanın hazırkı əməkdaşlığının bir çox ölkələr üçün nümunə ola biləcəyini söyləyib, dostluq münasibətlərinin dərinləşməsində parlamentlərarası əlaqələrin önəmindən danışıb.

* * *

Noyabrın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gürcüstan Pravoslav Kilsəsinin Patriarxı II İliya ilə görüşüb.

## Sədərək gömrük-keçid məntəqəsi üçün yeni kompleks tikilir



Muxtar respublikada gömrük infrastrukturunun yenidən qurulması və maddi-texniki bazanın müasir tələblər səviyyəsində formalaşdırılması istiqamətində mühüm addımlar atılır. Sədərək gömrük-keçid məntəqəsi üçün yeni kompleksin inşası və xidmətin səmərəli təşkili üçün lazımi iş şəraitinin yaradılması istiqamətində görülən işlər Azərbaycan gömrük sistemində həyata keçirilən ən genişmiqyaslı layihələrdən biridir. Yeni infrastruktur "bir dayanacaq" prinsipinə uyğun qurulan, yük xətti və anbarlardan, sərnişinlərin keçid zallarının da yerləşdiyi inzibati binadan, yoxlama-baxış sistemləri bölməsindən və rüsumsuz ticarət mağazasından ibarət müasir gömrük kompleksi olacaq.

Gömrük nəzarəti və rəsmiləşdirilməsinin texnoloji sxeminə uyğun olaraq, giriş-çıxış zolaqları bir-birindən ayrı nəzərdə tutulmuşdur. Üç zolaqla sərnişin və minik, iki zolaqla yük nəqliyyat vasitələri hərəkət edəcək.

Sərnişin keçid zalları kompleksin ortasında – üçmərtəbəli inzibati binanın birinci mərtəbəsində yerləşəcək. Gömrük nəzarəti zonasında sərnişinlərin hərəkəti üçün tunellər yaradılacaq, yaşıl və qırmızı kanallar formalaşdırılacaqdır.

Yük xətti, əsasən, rəsmiləşmə zalı və anbar binasından ibarətdir. Tranzit və idxal istiqamətində gələn və əks istiqamətdə hərəkət edən avtonəqliyyat vasitələrinin hərəkəti bir-birindən ayrı nəzərdə tutulmuşdur. Yük xətti üzərində iritonnajlı avtomobillərlə daşınan yüklərə gömrük nəzarətini həyata keçirməkdən ötrü X-Ray rentgen nəzarət-yoxlama kompleksi qurulmuşdur.

Qanunvericiliyə əsasən, gömrük nəzarətindən güzəştli qaydada keçməli olan şəxslərə xidmətin göstəriləcəyi binada və yeməkxanada tikinti işləri artıq yekunlaşdırılmışdır. Hal-hazırda inzibati binanın, anbar və rəsmiləşdirmə zalının tikintisi davam etdirilir. Kompleksin ərazisində həmçinin rüsumsuz ticarət mağazası və əlavə yardımçı binalar da inşa olunacaqdır.

Sədərək sərhəd-keçid məntəqəsi üçün yeni gömrük kompleksinin qurulması xidmətin nümunəvi təşkilinə lazımi şərait yaradacaq, gömrük nəzarəti və rəsmiləşdirilməsinin müasir tələblər səviyyəsində həyata keçirilməsi təmin olunacaqdır.

**Rahil TAHİRLİ**

## Şahbuz şəhərində Bayraq Meydanının inşası davam etdirilir



*Azərbaycan Respublikasının Dövlət Bayrağı bu gün bütün dünyada yaşayan azərbaycanlıların həmrəylik simvoluna çevrilib, soydaşlarımızın bir bayraq altında sarsılmaz birliyinin yaradılmasında mühüm rol oynayıb. Məhz bunun nəticəsidir ki, dünyanın hansı nöqtəsində yaşamasından asılı olmayaraq, hər bir soydaşımız üçrəngli bayrağımız altında Azərbaycançılıq ideallarının təbliğində, Azərbaycan həqiqətlərinin dünya birliyinə çatdırılması işində yaxından iştirak edir.*

İndi cəmiyyətimizdə Azərbaycan Respublikasının üçrəngli bayrağına ümummilli sevgi və ehtiram hissi yüksək səviyyədə formalaşıb, bayrağımız milli özündərk və həmrəylik simvolu kimi hər bir azərbaycanlının ürəyinə yol tapıb. Çünki bayrağımız milli vəhdətimizin rəmzidir. Bu vəhdət bizim üçrəngli bayrağımızı daha uca zirvələrə qaldırır.

Bu gün muxtar respublikanın paytaxtı Naxçıvan şəhərində olduğu kimi, bölgələrdə də Bayraq meydanları inşa edilir. Bu tədbirlərdən Şahbuz rayonuna da pay düşüb. Belə ki, hazırda Şahbuz şəhərində Bayraq Meydanı yaradılır. İnşaat işlərinin "Dizayn" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən həyata keçirildiyi obyektdə hazırda qızğın iş gedir. Şahbuz şəhərinin girişində inşa olunan Bayraq Meydanının ətrafında ötən müddətdə geniş abadlıq işləri görülüb, səkilər salınıb, piyada keçidləri qoyulub. Ərazi terraslara ayrılıb, milli ornamentlərin əks olunduğu memarlıq elementləri ilə dizayn edilib. Bayraq dirəyinin hündürlüyü postamentlə birlikdə 37 metrdir. Hazırda ərazidə genişmiqyaslı torpaq işləri həyata keçirilir, postament qranit daşlarla üzlənir, işıqlandırma sistemlərinin quraşdırılması üçün yeraltı xətlər çəkilir, səkilərə daş düzülür, yaşıllaşdırma işlərinə hazırlıq məqsədilə burada səliqə-sahman yaradılır.

Bayraq Meydanı ərazisində istirahət parkı salınacaq, sakinlərin mənalı istirahəti təşkil ediləcək. Tikinti işlərinin layihə əsasında aparıldığı, inşasına çox sayda işçi qüvvəsi və texnikanın cəlb edildiyi meydanın yaxınlığında ictimai iaşə obyektinin tikilməsi də nəzərdə tutulub.

**Səbuhi HÜSEYNOV**

## Əməyin mühafizəsinə diqqət artırılır

Muxtar respublikamızda əməyin mühafizəsi və işçilərin əmək hüquqlarının təmin olunması istiqamətində məqsədyönlü işlər davam etdirilir.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətindən aldığımız məlumata əsasən, cari ilin 10 ayı ərzində bu sahədə ardıcıl tədbirlər davam etdirilmişdir. Belə ki, istehsal müəssisələrində işçilərin əməyin mühafizəsi qaydalarına riayət etməsi ilə əlaqədar 93 müəssisə və tikinti sahəsində nəzarət işi həyata keçirilmiş, fərdi və kollektiv mühafizə vasitələrindən istifadə etməyən 114 işçi müvəqqəti olaraq tikinti sahəsindən uzaqlaşdırılmış, 204 işçi isə həmin vasitələrlə yerində təmin olunmuşdur. Əməyin mühafizəsi qaydalarının pozulması səbəbindən 5 işəgötürən inzibati məsuliyyətə cəlb olunaraq, ümumilikdə, 5200 manat məbləğində cərimələnmişdir.

Cari ilin 10 ayı ərzində işəgötürülən şəxslərlə əmək müqavilələrinin bağlanması və əməkhaqlarının real göstərilməsinə nəzarət məqsədilə 414 sahibkarlıq obyektinə baxış keçirilmiş, 278 işçi ilə yeni əmək müqaviləsinin bağlanmasına və 981 halda isə əmək müqaviləsində əməkhaqqının real göstərilməsinə nail olunmuşdur. Bu dövrdə "İstehsalatda baş vermiş bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə-əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikası Qanununun icrası ilə əlaqədar olaraq, Dövlət Baş Sığorta Agentliyinin nümayəndələri ilə birlikdə müvafiq sahibkarlıq subyektlərində araşdırmalar aparılmış və 290 müəssisədə işçilərin icbari sığorta olunmalarına dair müqavilələrin bağlanması təmin edilmişdir.

**Xəbərlər şöbəsi**

## Soyuducu anbarlara məhsul tədarükü diqqət mərkəzindədir

*Qış mövsümü yaxınlaşdıqca artan qayğılardan biri də etibarlı ərzaq ehtiyatının yaradılmasıdır. Muxtar respublikamızda bu vacib məsələyə göstərilən diqqət sayəsində həm kənd təsərrüfatı məhsullarının istehsalı, həm də onların istehlakçılara çatdırılması sahəsində geniş maddi-texniki baza və müasir infrastruktur yaradılıb. Bu baxımdan mühüm bazar infrastrukturu kimi istifadəyə verilmiş soyuducu anbarlar tələbatdan artıq istehsal olunmuş məhsulların qış ehtiyatı kimi saxlanılmasında və onların münasib qiymətə satışının təşkilində mühüm rol oynayır.*



Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin Sahibkarlığa Kömək Fondu vasitəsilə ayrılan güzəştli kreditlər və sahibkarların özlərinin şəxsi vəsaiti hesabına muxtar respublikada müxtəliftutumlu soyuducu və digər ərzaq məhsullarının saxlanması üçün çox sayda anbar inşa olunmuşdur. Soyuducu anbarlara tədarük olunan ərzaq məhsulları builki qış mövsümündə də əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına imkan verəcək.

Bəs hazırda soyuducu anbarlara tədarük sarıdan vəziyyət necədir? Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyindən aldığımız məlumata görə, hazırda muxtar respublikada 24 soyuducu anbar fəaliyyət göstərir. Onlardan dövlət maliyyə dəstəyi ilə yaradılmış ümumi tutumu 5810 ton olan soyuducu anbarlar bilavasitə kənd təsərrüfatı məhsulları istehsalçılarının fəaliyyətinin stimullaşdırılması məqsədilə tələbatdan artıq kənd təsərrüfatı məhsullarının tədarükünü həyata keçirir. Bu anbarlara cari ildə 6 min tondan çox məhsul tədarük edilmiş, haliyədə isə anbarlarda 2 min 300 tondan çox məhsul vardır.

Bundan əlavə, sahibkarların şəxsi vəsaitləri və dövlət maliyyə dəstəyi hesabına yaradılan ümumi tutumu 8850 ton olan soyuducu və digər təyinatlı istifadə üçün olan anbarlar sahibkarların öz istehsal məhsullarını saxlamaq məqsədi daşıyır. Bu anbarlara isə cari ilin hesabat dövründə 15 min 800 tona yaxın məhsul tədarük edilmişdir. Haliyədə bu məqsədlə fəaliyyət göstərən anbarlarda 1200 tondan çox məhsul saxlanılır.

Muxtar respublikamızın müxtəlif bölgələrində fəaliyyət göstərən bu anbarlar istehsal olunmuş kənd təsərrüfatı məhsullarının qeyri-mövsüm dövrlərində münasib qiymətlərlə bazara çıxarılması baxımından mühüm əhəmiyyət daşıyır. Muxtar respublikada anbar təsərrüfatı genişləndikcə istehsal olunmuş məhsulların maya dəyərinin aşağı salınması və istehlak bazarına daha tez çatdırılması məsələsi də bu baxımdan uğurla həll olunur. Qeyd edək ki, hazırda Naxçıvan Muxtar Respublikasında soyuducu anbarların ümumi tutumu 14 min 660 tondur. Payız mövsümünün sonunadək bu anbarlara daha çox kənd təsərrüfatı məhsullarının tədarük olunacağı gözlənilir.

**Əli CABBAROV**

# Milli qürur və iftixarımız – Azərbaycan bayrağı



*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2009-cu il noyabrın 17-də imzaladığı Sərəncama əsasən, hər il ölkəmizdə 9 noyabr tarixi “Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü” kimi qeyd edilir.*

Ölkə başçısının bu sərəncamı dövlət rəmzlərinə hörmət və ehtiramın ən bariz ifadəsidir. Çünki dünyanın ən qədim xalqlarından olan azərbaycanlılar milli mədəniyyətini, zəngin ənənə və dəyərlərini yaşadaraq yad təzahürlərdən hifz etməklə tarixi etnos kimi mövcudluqlarını daim qorumuşlar. Tariximizin ən dəyərli eksponatları sırasında yer tutan qədim dövlət rəmzləri və bayraqlar bizə Azərbaycan ərazisində mövcud olmuş dövlətlərin tarixini öyrənməyə, araşdırmağa geniş imkanlar açır. Müasir dövrdə isə bayraq xalqın müstəqillik, suverenlik, milli azadlıq, istiqlal ideallarını simvolizə edir. Ona görə də bu gün dövlət bayrağına hörmət və ehtiram, üçrəngli bayrağımıza olan məhəbbət və vətəndaş sevgisi hər bir azərbaycanlının Vətən qayğısına, millət duyğusuna çevrilmişdir. Ölkə Prezidentinin dövlət rəmzlərinə verdiyi yüksək dəyərin nəticəsidir ki, şanlı tariximizdən gələn milli dəyərlərə hörmət və ehtiram Azərbaycan dövlətinin təməl prinsipləri sırasında xüsusi yeri və mövqeyi ilə seçilir. Türkçülüyü, müasirliyi və İslam sivilizasiyasını təcəssüm etdirən bayrağımız dövlətimizin ideoloji modelinin məna və funksiyasını tamamilə ifadə edir, müasir Azərbaycan üçrəngli bayrağımız altında müstəqillik yolu ilə inamla irəliləyir, iqtisadi və siyasi gücünü getdikcə artırır.

Üçrəngli bayrağımızın dövlət rəmzlərindən biri kimi qəbul edilərək ucaldılması Azərbaycan Xalq Cümhuriyyəti dövrünə təsadüf edir. Fətəli xan Xoyskinin rəhbərlik etdiyi Azərbaycan Müvəqqəti Hökumətinin 1918-ci il 24 iyun tarixli qərarı ilə üzərində ağ aypara və səkkizguşəli ulduz təsviri olan qırmızı rəngli bayraq Azərbaycan Xalq Cümhuriyyətinin Dövlət Bayrağı kimi qəbul olunmuşdur. 1918-ci il noyabrın 9-da isə Bakı şəhərində Fətəli xan Xoyskinin sədrliyi ilə Nazirlər Kabinetinin iclası keçirilmiş, burada onun milli bayraq haqqında məruzəsi dinlənilmişdir. Müzakirələrdən sonra mavi, qırmızı və yaşıl rənglərdən, ağ aypara və səkkizguşəli ulduzdan ibarət olan bayraq dövlət bayrağı kimi qəbul edilmişdir.

Azərbaycanın üçrəngli bayrağı qədim türklərin göytanrıçılığı fəlsəfəsini özündə yaşadaraq “Türkləşmək, müasirləşmək, islamlaşmaq” devizinə əsaslanmışdır. Naxçıvan xanlığının bu günlərdə Sankt-Peterburq muzeyində tapılmış dövlət bayrağında da göytanrıçılığı atributu və səkkizguşəli ulduz elementləri açıq-aşkar görünür. Bu, bir daha göstərir ki, üçrəngli, ay-ulduzlu bayrağımız bizim qan yaddaşımız, genetik kodumuzdur.

1920-ci ilin 28 aprelində Azərbaycan Xalq Cümhuriyyətinin bolşevik Rusiyası tərəfindən işğalından sonra üçrəngli bayrağımız Azərbaycan parlamentinin binası üzərindən endirilmiş, əvəzində bolşevik ideologiyasının məhsulu kimi üzərində oraq və çəkic şəkli olan bayraq dövlət bayrağı kimi qəbul olunmuşdur.

Üçrəngli bayrağımızın dövlət rəmzi kimi bərpası və yüksəldilməsi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ötən əsrin 90-cı illərinin əvvəllərində ölkədə cərəyan edən mürəkkəb və ziddiyyətli bir dövrdə Naxçıvana rəhbərlik edən ümummilli lider Heydər Əliyev əsl vətənpərvərliklə və lider təssübkeşliyi ilə milli dövlət quruculuğu üçün mühüm qərarlar qəbul etmişdir. Bu dövrdə xalqda milli özünüdərki gücləndirən, milli dövlət rəmzlərinə hörmət təlqin edən genişmiqyaslı addımlar atılmışdır. 1990-cı il noyabrın 17-də Naxçıvan Ali Sovetinin sessiyasında ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə müstəqil Azərbaycan dövlətçiliyinin bərpası istiqamətində bir çox məsələlər müzakirə olunmuş, “Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilməsi haqqında”, “Naxçıvan Muxtar Respublikası Ali Dövlət hakimiyyəti orqanı haqqında”, “Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında” tarixi qərarlar qəbul edilmişdir. “Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında” Qərara əsasən, müstəqilliyimizin əsas atributlarından olan Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı kimi qəbul olunmuşdur. Bununla əlaqədar ümummilli lider Heydər Əliyevin öz əli ilə yazdığı Ali Məclisin Qərarında deyilirdi:

Naxçıvan Muxtar Respublikası Ali Məclisi qərara alır:

*1) İlk Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət Bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi təsis edilsin.*

*2) Naxçıvan Muxtar Respublikasının digər dövlət rəmzi – Dövlət Himni və gerbi haqqında məsələ öyrənilib Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə verilsin.*

*3) Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət Bayrağının, bütövlükdə, Azərbaycan SSR-in dövlət rəmzi kimi təsis edilməsi məsələsi qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan SSR Ali Sovetindən xahiş edilsin.*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***“Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında Naxçıvan Ali Sovetinin sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı Naxçıvanda Dövlət Bayrağı kimi təsdiq edildi... Bizim müstəqilliyə gedən yolumuz o gündən başlamışdır. Məhz Xalq Cümhuriyyətinin bayrağının Dövlət Bayrağı kimi qəbul olunması Azərbaycanı müstəqilliyə daha da yaxınlaşdırmış və ölkəmizdə gedən proseslərə güclü təkan vermişdir”.***

1991-ci il fevral ayının 5-də Azərbaycan Respublikası Ali Soveti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatətinə baxmış və üçrəngli bayrağın Azərbaycanın Dövlət Bayrağı kimi qəbul edilməsi haqqında qanun qəbul olunmuşdur.

Ümummilli liderimiz Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra dövlət bayrağı da milli suverenliyin simvolu kimi təsdiq olunmuş, Azərbaycan Respublikasının Dövlət Bayrağı haqqında çoxsaylı normativ aktlar qəbul edilmişdir. Ulu öndərimizin rəhbərliyi altında hazırlanaraq 1995-ci ildə ümumxalq referendumu ilə qəbul edilmiş Azərbaycan Konstitusiyasında üçrəngli bayraq dövlət rəmzi kimi təsbit edilmişdir. ***“Azərbaycanın bayrağı, sadəcə, bayraq deyil. O, bizim dövlətçiliyimizin, müstəqilliyimizin rəmzidir. Gərək hər bir evdə Azərbaycan dövlətinin bayrağı olsun, hər bir ailə Azərbaycan bayrağına itaət etsin. Bu bayraq gərək hər bir ailənin həyatının əziz bir hissəsi olsun”***, – deyən görkəmli dövlət xadimi Heydər Əliyevin 1998-ci il 13 mart tarixli “Azərbaycan Respublikasının dövlət atributlarının təbliği işinin gücləndirilməsi haqqında” Sərəncamı dövlət atributlarının, o cümlədən bayrağımızın təbliği baxımından mühüm əhəmiyyət daşıyır.

Ulu öndərin siyasi kursunu bütün sahələrdə uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev də Azərbaycanın milli dövlət atributlarını daim uca tutur. Azərbaycan Prezidentinin milli ideallara bağlılığı özünü həm də üçrəngli bayrağımıza münasibətdə göstərir. Azərbaycan Respublikasının 2004-cü il 8 iyun tarixli Qanunu ilə Azərbaycan Respublikası Dövlət Bayrağının istifadəsi qaydaları müəyyənləşdirilmişdir. Bu qanunla Dövlət Bayrağının qaldırılmalı və yerləşdirilməli olduğu yerlər müəyyən edilmiş, onun rəsmi tədbirlər, matəm günləri və matəm mərasimləri zamanı istifadəsi, həmçinin digər bayraqlarla birgə qaldırılması (asılması) və ya yerləşdirilməsi qaydaları təsbit olunmuş, Dövlət Bayrağının istifadəsinə dair tələblər və məhdudiyyətlər, habelə Dövlət Bayrağı haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət müəyyənləşdirilmişdir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin 2007-ci il 17 noyabr tarixli Sərəncamına əsasən isə Bakı şəhərində Dövlət Bayrağı Meydanı yaradılmışdır. 2010-cu il sentyabrın 1-də Bakıda Dövlət Bayrağı Meydanının təntənəli açılışı olmuşdur. Meydan üçün seçilmiş yer dövlət bayrağının paytaxtın müxtəlif nöqtələrindən görünməsinə imkan yaradır. Dünyanın ən uca bayraq dirəyinin hündürlüyü 162, bayrağın eni 35, uzunluğu 70 metr, ümumi sahəsi 2450 kvadratmetr, çəkisi isə 350 kiloqramdır. Dövlət Bayrağı Meydanının əhəmiyyətini artıran digər mühüm amil bu monumental kompleksin dövlət rəmzlərini özündə birləşdirən məkana çevrilməsidir. Bayrağın bünövrəsinin əhatəsində dövlət rəmzləri – himnin sözləri, gerb və Azərbaycanın xəritəsi yerləşdirilmişdir. “Ginnes” dünya rekordları təşkilatı 2010-cu il mayın 29-da Azərbaycanın Dövlət Bayrağı dirəyinin dünyada ən hündür bayraq dirəyi olduğunu təsdiq etmişdir.

Bu gün ölkəmizin digər guşələrində də yaradılan bayraq meydanları dövlət atributlarımıza olan sevgi və hörmətin göstəricisidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2014-cü il 22 avqust tarixdə imzaladığı “Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması haqqında” Sərəncam bu baxımdan mühüm əhəmiyyət kəsb edir. 2014-cü il noyabrın 17-də Dövlət Bayrağı Meydanı və Muzeyinin təntənəli açılış mərasimi keçirilmişdir. Açılış mərasimində çıxış edən Ali Məclisin Sədri demişdir: ***“Dövlətçilik tariximizdə mühüm yer tutan dövlət rəmzləri və bayraqlar bir tərəfdən nadir dövlətçilik irsinin varisləri kimi bizdə iftixar hissi doğurursa, digər tərəfdən Naxçıvanda mövcud olmuş qədim dövlətlərin tarixini öyrənməyə də geniş imkanlar yaradır. Naxçıvan şəhərində yaradılan Dövlət Bayrağı Meydanı və Muzeyi bu baxımdan mühüm əhəmiyyətə malik olacaqdır... Dövlət Bayrağı Meydanı və Muzeyini ziyarət edən hər bir insan, hər bir gənc dövlət rəmzlərinin tariximizdəki yeri barədə məlumatlandırılmalı, dövlət atributlarının mahiyyəti və əhəmiyyəti geniş təbliğ olunmalı, ümummilli liderimiz Heydər Əliyevin səyi ilə üçrəngli bayrağımızın ilk dəfə Dövlət Bayrağı kimi qaldırıldığı gün – noyabrın 17-si hər il Naxçıvan Muxtar Respublikasında əlamətdar tarixi gün kimi qeyd edilməlidir”.***

Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri “Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı haqqında” Sərəncam imzalamışdır. Sərəncama əsasən, hər il noyabr ayının 17-nin Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Günü kimi qeyd edilməsi qərara alınmışdır.

Naxçıvan şəhərindəki Bayraq Meydanında unikal quruluşa malik Bayraq Muzeyi yaradılmışdır. Muzeydə ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının ali qanunverici orqanında qəbul olunan “Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında” Qərarın surəti və həmin tarixi günə aid fotoşəkillər nümayiş olunur. Tarixən Naxçıvan ərazisində mövcud olmuş dövlətlərin, eləcə də Naxçıvan xanlığının bərpa olunmuş bayraqları, gerbləri və inzibati xəritələri, Naxçıvan xanlığının süvari dəstələrinə verilən bayraqlar, döyüşçü libasları, Naxçıvan Muxtar Respublikasının müxtəlif illərdə qəbul olunmuş konstitusiyaları muzeyin ekspozisiyasında yerləşdirilmişdir.

Milli qürurumuzun rəmzi olan üçrəngli bayrağımız hər zaman ucalarda tutulacaq və heç vaxt enməyəcəkdir. Əbədi müstəqilliyimizin simvolu kimi daim uca zirvələrdə dalğalanan bayrağımız milli dəyərimiz, əyilməyən başımız, qürurumuzdur. Azərbaycan bayrağını müqəddəsləşdirən təkcə onun and yerimiz olması deyil, bayraq həm də dövlətimizin, bütövlükdə, xalqımızın gələcək yolunu müəyyənləşdirən bələdçidir.

*Milliliyi, dini inancımızı və müasirliyi təcəssüm etdirən bayrağımız azərbaycanlılara öz soykökünü xatırladır, üzərində dalğalanan torpağın qədimliyini göstərir. Bu gün ən yüksək zirvələrdə dalğalanan üçrəngli bayrağımız Azərbaycan dövlətinin gücünü və xalqımızın milli birliyini nümayiş etdirir. Ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi:* ***“Kim Azərbaycanı sevirsə, kim Azərbaycanın müstəqil dövlət olmasını istəyirsə, kim Azərbaycanın işğal olunmuş torpaqlarının azad olunmasını istəyirsə, kim Azərbaycanın ərazi bütövlüyünü istəyirsə, o, bu bayraq altında birləşməlidir”.***

**“Şərq qapısı”**

# Dövlət Bayrağı Günü qeyd olunub

*Naxçıvan Dövlət Universitetində 9 Noyabr – Dövlət Bayrağı Günü qeyd olunub.*

Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov hər bir xalqın dövlətçilik tarixində dövlət rəmzlərinin xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayaraq bildirib ki, bayrağımız xalqımızın milli mövcudluq rəmzidir. Elə buna görə də hər bir azərbaycanlı üçrəngli bayrağımıza böyük hörmət və yüksək ehtiram bəsləyir. Ölkəmizin ayrı-ayrı şəhərlərində tikilən bayraq meydanları da bunu təsdiqləyir. Bayraq qürurumuz, milli kimliyimizdir.

Qeyd olunub ki, Azərbaycanın üçrəngli Dövlət Bayrağı bu gün ayrı-ayrı dövlət qurumlarının, diplomatik nümayəndəliklərin binaları üzərində ucaldılır, mühüm beynəlxalq



tədbirlər, mötəbər mərasimlər və məclislərlə yanaşı, ictimai-siyasi toplantılarda, kütləvi-mədəni, siyasi, iqtisadi tədbirlərdə, idman yarışlarında qaldırılaraq milli birliyi təcəssüm etdirir. İdmançılarımızın müxtəlif ölkələrdəki hər qələbəsi şərəfinə ucaldılan bayraq hər bir azərbaycanlının qəlbində böyük sevinc, iftixar hisləri doğurur.

YAP Universitet şəhərciyi ərazi ilk təşkilatının sədr müavini, tarix üzrə fəlsəfə doktoru Şamxal Məmmədov “Üçrəngli bayrağımız müstəqilliyimizin simvoludur” mövzusundakı məruzəsində bildirib ki, bu gün Azərbaycanda dövlət atributlarına hörmət və ehtiram yüksək səviyyədədir. Bu da ulu öndərin yolunu uğurla davam və inkişaf etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dövlət rəmzlərinə olan münasibətindən qaynaqlanır. Ölkə Prezidentinin dövlət rəmzlərinə verdiyi yüksək dəyərin nəticəsidir ki, şanlı tariximizdən gələn milli dəyərlərə hörmət və ehtiram Azərbaycan dövlətinin təməl prinsipləri sırasında xüsusi yeri və mövqeyi ilə seçilir.

“Bayrağımız milli dövlətçiliyimizin qürur mənbəyidir” adlı məruzə ilə çıxış edən Azərbaycan tarixi kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Elçin Zamanov bildirib ki, əsrlər boyu müstəqillik arzusu ilə yaşamış Azərbaycan xalqı bu yolda yorulmaz mübarizəsi sayəsində bütün çətin sınaqlardan üzüağ, şərəflə çıxaraq bu gün bütün azadlıqların qorunduğu müstəqil ölkədə yaşayır.

Tədbirdə dövlət bayrağı haqqında slaydlar nümayiş olunub.

Sonda YAP sıralarına yeni qəbul olunmuş tələbələrə üzvlük vəsiqələri təqdim edilib.

**Mina QASIMOVA**

*10-17 noyabr Beynəlxalq Tələbə-Gənclər Həftəsidir*

# Tələbə-gənclər hərəkatı dövlət gənclər siyasətinin mühüm tərkib hissəsinə çevrilmişdir

***1996-cı ildən etibarən hər il noyabrın 10-17-si ölkəmizdə Beynəlxalq Tələbə-Gənclər Həftəsi kimi qeyd olunur. Bu gün Azərbaycan əhalisinin böyük əksəriyyətini gənclər təşkil edir. Buna görə də Azərbaycanda gənclərlə iş dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir.***

Azərbaycanda dövlət gənclər siyasətinin əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuşdur. Dahi şəxsiyyət ölkəmizə rəhbərliyinin bütün dövrlərində gənc nəslin əsl himayədarı olmuş, sosial-iqtisadi, elmi-mədəni, təhsil və digər sahələrdə gənclərin fəal iştirakının təmin olunmasını diqqət mərkəzində saxlamışdır. Ulu öndərimiz gəncliyin aktiv sosial təbəqə kimi ictimai həyatdakı roluna mühüm əhəmiyyət verərək demişdir: ***“Hər bir xalq özünün xoşbəxt gələcəyinə olan ümidlərini, ilk növbədə, gənc nəsillə bağlayır. Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması onun mənsub olduğu xalqın rifahının, ölkənin çiçəklənməsinin rəhnidir. Bu gün iftixar və qürur hissi ilə bildirmək istəyirəm ki, müasir Azərbaycan gəncliyi milli-mənəvi dəyərlərimizi, doğma ana dilimizi, ata-babalardan qalan gözəl adət-ənənələrimizi gözbəbəyi kimi indi də qoruyub yaşadır”.***

Azərbaycan müstəqillik qazandıqdan sonra gənclərlə iş intensiv xarakter almış, bu sahədə zəngin qanunvericilik bazası və gənclər siyasətini həyata keçirən dövlət orqanları yaradılmış, 2002-ci ildə “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Sonrakı dövrlərdə də ölkənin ictimai-siyasi həyatında gənclərin yaxından iştirakı üçün ardıcıl tədbirlər görülmüş, “Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında”, “Gənc istedadlar üçün xüsusi təqaüdlərin təsis edilməsi haqqında”, “Bədən tərbiyəsi və idman haqqında” qanunlar qəbul edilmişdir. Bu gün ölkəmizdə gənclərlə iş “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikasının Qanunu və 20-yə yaxın normativ-hüquqi aktla tənzimlənir. Ötən dövrdə bu sahənin inkişafı ilə bağlı 5 dövlət proqramı qəbul edilmişdir. “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”, “Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı”, “Azərbaycan Respublikasında texniki-peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı” gənclərin dünyanın nüfuzlu ali məktəblərində təhsil almağa göndərilməsinə, onların yaradıcılıq potensialının üzə çıxarılmasına, intellektual səviyyəsinin yüksəldilməsinə və sosial problemlərinin həllinə mühüm töhfə vermişdir. “Azərbaycan gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramı” isə ölkəmizdə həyata keçirilən gənclər siyasətinin uğurlu davamı kimi mühüm əhəmiyyətə malikdir.

Bu gün dövlət gənclər siyasəti ölkə başçısı cənab İlham Əliyevin diqqət və qayğısı ilə özünün keyfiyyətcə yeni inkişaf mərhələsini yaşayır. Ölkəmizin bütün bölgələrində gənclərin hərtərəfli inkişafı üçün ardıcıl tədbirlər görülür, elm və təhsil ocaqları, gənclər evləri, idman kompleksləri tikilib istifadəyə verilir. Bunun nəticəsidir ki, bugünkü Azərbaycan gəncliyi cəmiyyət həyatının bütün istiqamətlərində fəal iştirak edir, yüksək intellektli toplum kimi yetişir, beynəlxalq miqyaslı yarış və tədbirlərdə ölkəmizi layiqincə təmsil edir. Bu il ölkəmizdə keçirilən birinci Avropa Oyunlarında gənclərimiz həm təşkilatçı kimi mühüm vəzifələri layiqincə yerinə yetirmiş, həm də yarışların iştirakçısı kimi yüksək nailiyyətlər qazanaraq ölkəmizi layiqincə təmsil etmişlər.

Naxçıvan Muxtar Respublikasında da dövlət gənclər siyasəti uğurla davam etdirilir, gənclər siyasətinin bütün istiqamətləri üzrə dövlət proqramları icra olunur. Gənclərin muxtar respublikanın ictimai-siyasi, iqtisadi və mədəni həyatında fəal iştirakı, sosial problemlərinin həlli və hüquqlarının müdafiəsinin təmin edilməsi, gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə gənclərin irəli çəkilməsi və xidmətlərinin qiymətləndirilməsi istiqamətində ardıcıl tədbirlər görülür. Son illər muxtar respublikada təhsil müəssisələri üçün yüzlərlə binalar tikilmiş, olimpiya-idman kompleksləri, üzgüçülük və şahmat mərkəzləri istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında” 2012-ci il 31 yanvar tarixli, “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun yaradılması haqqında” 2012-ci il 29 mart tarixli fərmanları muxtar respublikada gənclərə göstərilən diqqət və qayğının daha bir nümunəsidir. Qeyd olunan fərmanlarla Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının “Qızıl kitabı” təsis edilmiş, Naxçıvan şəhərində Gənclər Mərkəzi inşa olunmuş, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun fəaliyyəti təmin edilmişdir. Bu da gənclərin hərtərəfli inkişafı, müxtəlif layihələrin təşəbbüskarı kimi çıxış etməsi, asudə vaxtlarının səmərəli təşkili baxımından xüsusi əhəmiyyət kəsb edir.

Muxtar respublikamızda gənclərin asudə vaxtının səmərəli təşkili, yaradıcılıq potensialının üzə çıxarılması daim diqqət mərkəzindədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 30 may tarixli Sərəncamı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında xüsusi istedada malik olan gənclərin yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006-2010-cu illər)”nın icrası uğurla başa çatdırılmış, bu sahədə mühüm nailiyyətlər əldə edilmişdir.

Muxtar respublikada idmanın kütləviliyinə nail olmaq, gənclərin idmana cəlb olunması, istedadlı idmançılar nəslinin yetişdirilməsi qarşıya mühüm vəzifə kimi qoyulub. Son dövrlər muxtar respublikanın şəhər və rayonlarında olimpiya-idman komplekslərinin, idman mərkəzlərinin, uşaq-gənclər idman və şahmat məktəblərinin, stadionların, mini-futbol meydançalarının, orta məktəblərdə idman zallarının və digər idman qurğularının istifadəyə verilməsi gənc nəslin fiziki sağlamlığının qorunması və idmanın kütləvi inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir.

Bu sahədə yaradılan infrastruktur ölkə və dünya miqyaslı idman yarışlarının keçirilməsinə, muxtar respublika gənclərinin bu yarışlarda iştirakına və uğurlar qazanmasına əlverişli zəmin yaratmışdır. 2015-ci ilin ötən dövründə də muxtar respublikada yerli və beynəlxalq yarışlar, turnirlər təşkil edilmiş, gənclər və idman sahəsində iki yüzdən çox tədbir keçirilmiş və bu tədbirlərdə 10 mindən artıq gənc iştirak etmişdir. Muxtar respublika gəncləri bu il keçirilən idman yarışlarında, ümumilikdə, 60 medal qazanmışdır. Bunların 33-ü Azərbaycan çempionatlarından, 14-ü beynəlxalq turnirlərdən, 2-si Avropa çempionatından, 2-si birinci Avropa Oyunlarından, 9-u isə dünya çempionatlarından əldə olunmuşdur.



Naxçıvan şəhərində Gənclər Mərkəzi

Gənclərin asudə vaxtlarının təşkili də diqqət yetirilən məsələlərdəndir. Asudə vaxtların müxtəlif tədbirlərdə, yarış və müsabiqələrdə, ekskursiyalarda səmərəli keçirən gənclərin dünyagörüşü daha da zənginləşir. Hər il Ağbulaq İstirahət Mərkəzində təşkil olunan yay məktəbləri, Naxçıvanın görməli yerlərinə səfərlər, muzeylərin ziyarət olunması gənclərdə muxtar respublikanın tarixi, coğrafiyası, zəngin mədəniyyəti, qədim tarixi abidələri haqqında zəngin təəssürat yaradır, onların milli-mənəvi dəyərlərimizə bağlılığını artırır.

Muxtar respublikada tələbə-gənclər hərəkatı həyata keçirilən inkişaf strategiyasının mühüm istiqamətini təşkil edir. Bu gün muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələrində 10 minə yaxın gənc təhsil alır. Tələbə kontingentinin yüksək təhsil alması, beynəlxalq təcrübələrə yiyələnməsi və hərtərəfli inkişafına xüsusi diqqət yetirilir. Gənclərin inkişafı sahəsində görülən işlər sırasında onların elmi potensialının formalaşdırılması, eləcə də mütaliə vərdişlərinin və dünyagörüşünün artırılması da diqqət mərkəzində saxlanılmış, Naxçıvan Muxtar Respublika Kitabxanasında, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzində, Naxçıvan Dövlət Universitetində, “Naxçıvan” Universitetində və Gənclər Mərkəzində elektron kitabxanalar, eləcə də Naxçıvan Təhsil İnformasiya Mərkəzində məhdud fiziki imkanlılar üçün audio və elektron kitabxana yaradılmış, Distant Təhsil Mərkəzi istifadəyə verilmişdir.

Aparılan gənclər siyasətinin uğurlu nəticəsidir ki, bu gün Naxçıvan tələbə-gənclərinin səsi dünyanın tanınmış universitetlərindən gəlir. Bu gün yüzlərlə naxçıvanlı gənc ABŞ, İngiltərə, Fransa, Almaniya, Türkiyə, Cənubi Koreya, Ukrayna və Rusiya Federasiyasının aparıcı ali məktəblərində təhsil alaraq gələcəyin mütəxəssisləri kimi yetişirlər.

Bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı kimi, bu il sentyabrın 15-də “Naxçıvan” Universitetində yeni tədris korpusları, müasir informasiya texnologiyaları ilə təchiz olunan imtahan və mühazirə zalları, idman kompleksi, zəngin fonda və elektron imkanlara malik kitabxana və hərtərəfli şəraiti olan yataqxana binası istifadəyə verilmişdir. Açılış tədbirində iştirak edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Təhsil o zaman səmərəli olur və nəticə verir ki, o, əməli fəaliyyətə çevrilsin. Universitetlərdə, orta ixtisas və peşə məktəblərində, hərbi liseydə təhsil alan gənclər gələcəkdə cəmiyyət həyatının müxtəlif sahələrində ixtisaslı kadrlar kimi çalışmalı, bilik və bacarıqlarını ölkəmizin inkişafına sərf etməlidirlər”.***

Ali Məclis Sədrinin bu dəyərli tövsiyələri gənclərin gələcəyin ixtisaslı kadrı kimi yetişməsi, cəmiyyət həyatında öz yerini tutması üçün görüləcək işlərin əsl mahiyyətini tam dolğunluğu ilə ifadə edir. Buna görə də muxtar respublikada gənclərin elə təhsil illəri dövründən peşə vərdişlərinə yiyələnməsinə və yüksəkixtisaslı kadr kimi yetişməsinə xüsusi diqqət yetirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında” Sərəncamı bu istiqamətdə həyata keçirilən tədbirlərin daha geniş təşkilinə stimul vermişdir. Sərəncama əsasən, muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan tələbələr öz ixtisaslarına uyğun olaraq dövlət təşkilatları və müəssisələr tərəfindən himayəyə götürülmüşdür. Əlavə dərslərə, peşə və istehsalat təcrübəsinə cəlb olunan bugünkü tələbə-gənclik gələcəyin peşəkar mütəxəssisi kimi yetişəcək, təhsilini başa vurduqdan sonra məşğulluq problemi ilə üzləşməyəcəkdir. Ümumiyyətlə, bu sahədə görülən işlərin nəticəsidir ki, bu gün muxtar respublikada məşğul əhalinin yarıdan çoxunu gənclər təşkil edir.

Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ali məktəblərdə təhsil alan tələbə-gənclərin milli dövlətçilik, Azərbaycançılıq, vətənpərvərlik ruhunda yetişib formalaşması üçün genişmiqyaslı tədbirlər həyata keçirilir. Bu baxımdan hər il Beynəlxalq Tələbə-Gənclər Həftəsinə həsr olunmuş tədbirlər də mühüm əhəmiyyət kəsb edir. Bu il də Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi, ali və orta ixtisas təhsili müəssisələrinin təşkilatçılığı ilə Beynəlxalq Tələbə-Gənclər Həftəsi münasibətilə 10-17 noyabr tarixləri ərzində ali və orta ixtisas təhsili müəssisələrinin tələbələrinin iştirakı ilə müxtəlif tədbirlər keçiriləcəkdir.

Bu gün ölkəmizdə və Naxçıvan Muxtar Respublikasında gənc nəslin vətənpərvərlik, milli dəyərlərə bağlılıq ruhunda tərbiyəsi xüsusi diqqət mərkəzində saxlanılır. Gənclərin ölkənin ictimai-siyasi həyatında aktiv fəaliyyəti, beynəlxalq aləmdə Azərbaycan həqiqətlərinin yayılması sahəsindəki xidmətləri də təqdirəlayiqdir.

> ***Hərtərəfli qayğı ilə əhatə olunan və ulu öndər Heydər Əliyevin siyasi xəttinə sədaqət ruhunda böyüyən Azərbaycan gəncliyi ictimai həyatın bütün sahələrində aktiv fəaliyyəti ilə seçilir, siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində fəal iştirak edir.***

***Naxçıvan Muxtar Respublikası***
***Gənclər və İdman Nazirliyinin***
***mətbuat xidməti***

## Müharibə veteranının 90 yaşı qeyd olunub

***Noyabrın 5-də Şərur rayon Xanlıqlar kənd sakini, müharibə veteranı Abbas Abbasovun 90 yaşının tamam olması münasibətilə onunla görüş keçirilib.***

Tədbirdə iştirak edən Şərur Rayon İcra Hakimiyyətinin başçısı İbrahim Məmmədov, Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova yubilyarı 90 yaşı münasibətilə təbrik ediblər.

Vurğulanıb ki, müharibə veteranlarının sosial rifahının yüksəldilməsi istiqamətində davamlı tədbirlər həyata keçirilir. Onlar minik avtomobilləri, texniki bərpa vasitələri və protez-ortopediya məmulatları ilə təmin olunur, sanatoriya və pansionatlara müalicəyə göndərilir, hər ay müharibə veteranlarına Prezident təqaüdü ödənilir, habelə yaşayış yerlərində abadlıq işləri aparılır.

Abbas Abbasov müharibə veteranlarına göstərilən yüksək diqqət və qayğıya görə dövlətimizə minnətdarlığını bildirib.

Sonda yubilyara hədiyyə təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası***
***Əmək və Əhalinin Sosial***
***Müdafiəsi Nazirliyinin***
***mətbuat xidməti***

## Növbəti sertifikasiya test imtahanı keçirilib

***Muxtar respublikamızda praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan səhiyyə mütəxəssislərinin sertifikasiyası davam etdirilir.***

Naxçıvan Dövlət Universitetində keçirilən növbəti test imtahanında Naxçıvan Muxtar Respublika Xəstəxanasının orta tibb işçiləri öz bilik və bacarıqlarını sınamışlar.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində test imtahanı üçün əvvəlcədən 1000 sual tərtib edilərək kompüterə yerləşdirilmişdir. Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının Naxçıvan Muxtar Respublikası Regional Bölməsi nümayəndəsinin iştirakı ilə test bankından hər variant üzrə 100 sual seçilərək imtahanda iştirak edən 81 tibb işçisinə paylanmış, 3 saat davam edən imtahanın şəffaf, tam obyektiv şəraitdə keçirilməsi təmin edilmişdir.

İmtahanda 55 nəfər 90-100 intervalında bal toplamışdır ki, bu da əvvəlki imtahanlara nisbətən daha yüksək nəticədir. Yüz ballıq nəticəyə yaxınlaşanların da sayı əvvəlkilərə nisbətən xeyli artmışdır. Tibb bacılarından 12 nəfəri 97-99 arası, Naxçıvan Muxtar Respublika Xəstəxanasının orta tibb işçiləri Seyran Əhmədova və Bahar Hüseynova isə 100 bal toplamışlar.

İmtahanlarda zəruri həddi keçə bilməyənlərin də sayı get-gedə azalır. Növbəti imtahanda 81 nəfərdən yalnız 5 nəfəri lazımi nəticəyə nail ola bilməmişdir. Onlar 6 ay müddətində iş yerləri saxlanılmaqla müvafiq peşə hazırlığı keçəcək, sonra yenidən sertifikasiya test imtahanlarında iştirak edəcəklər.

Sertifikasiya prosesinin müsahibə mərhələsi növbəti həftə ərzində keçiriləcək və bu mərhələdə də uğur qazananlar növbəti beş il üçün sertifikat alacaqlar.

***Naxçıvan Muxtar Respublikası***
***Səhiyyə Nazirliyinin***
***mətbuat xidməti***

*Milli dəyərlər xalqları, millətləri bir-birlərindən fərqləndirən ən üstün keyfiyyətlərdir. Azərbaycan xalqının da özünəməxsus zəngin milli dəyərləri vardır – dilindən, musiqisindən, folklorundan, himnindən, gerbindən, bayrağından tutmuş özünün dünya şöhrətli şəxsiyyətlərinə qədər. Bu mənada, xalqımızın milli dəyərləri haqqında uzun-uzadı və yorulmadan, yormadan danışmaq, yazmaq olar.*

*Azərbaycan xalqının milli dəyərlərindən biri də, heç şübhəsiz, üçrəngli bayrağımızdır. O bayraq ki, onun rənglərində xalqımızın müstəqillik amalı, müasirlik ənənəsi, islamçılıq düşüncəsi özünə yer tapıb. O bayraq ki, onun uğrunda qan tökülüb, can verilib, mübarizə aparılıb. O bayraq ki, onun kölgəsi düşən hər bir qarış torpağı özümüzə Vətən bilmişik və onun dalğasında azadlıq arzularımız nümayiş olunur.*

# Üçrəngli bayrağım



***Göylərdən almısan mavi rəngini,***
***Təbiət bəxş edib öz çələngini,***
***Döyüşdə çalmısan zəfər cəngini,***
***Qalxıb, ucalmısan Vətənlə qoşa,***
***Üçrəngli bayrağım, yaşa, min yaşa!***

***Xalqımın sevgisi, məhəbbətisən,***
***Yurdumun vüqarı, əzəmətisən,***
***Sən ulu Heydərin əmanətisən,***
***Qalxıb, ucalmısan Vətənlə qoşa,***
***Üçrəngli bayrağım, yaşa, min yaşa!***

***Sən qan yaddaşımsan, mənim elimsən,***
***Neçə yad ölkədə ötən dilimsən,***
***Ən uca zirvəyə çatan əlimsən,***
***Qalxıb, ucalmısan Vətənlə qoşa,***
***Üçrəngli bayrağım, yaşa, min yaşa!***

***Parlayır sinəndə ayın, ulduzun,***
***Səninlə fəxr edir, hər oğlun, qızın,***
***Köksündə boy atıb ən böyük arzum,***
***Qalxıb, ucalmısan Vətənlə qoşa,***
***Üçrəngli bayrağım, yaşa, min yaşa!***

**Rövşən HÜSEYNOV**

## Rəssamlar Dövlət Bayrağı Muzeyini ziyarət ediblər



*Dünən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin üzvləri 9 Noyabr – Dövlət Bayrağı Günü münasibətilə Naxçıvan şəhərində yerləşən Dövlət Bayrağı Muzeyini ziyarət ediblər.*

Burada onlara məlumat verilib ki, Dövlət Bayrağı Meydanı və Muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 22 avqust tarixli Sərəncamına əsasən yaradılıb və 2014-cü il noyabrın 17-dən fəaliyyətə başlayıb. Muzeydə Naxçıvanda müxtəlif dövrlərdə qəbul edilmiş bayraqlar və dövlət atributları nümayiş etdirilir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə təsis edilmiş üçrəngli bayrağımız ikinci dəfə ulu öndər Heydər Əliyev tərəfindən 1990-cı il noyabrın 17-də Naxçıvanda qaldırılıb. Muzeydə həmin illərdə qəbul olunmuş tarixi qərarlar, Azərbaycan Respublikasının Dövlət Bayrağı və digər dövlət atributları haqqında ətraflı məlumatlar yerləşdirilib.

Ziyarətçilərə ekspozisiyadakı qədim dövlətlərin bərpa olunmuş bayraqları, gerbləri və inzibati xəritələri, Naxçıvan xanlığının süvari dəstələrinə verilən bayraqlar, döyüşçü libasları, Naxçıvan Muxtar Respublikasının müxtəlif illərdə qəbul olunmuş dövlət rəmzləri və konstitusiyaları haqqında ətraflı məlumat verilib.

## Naxçıvanlı elm adamları qrant müsabiqəsinin qalibi olublar

Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun qrant müsabiqəsinin nəticələri açıqlanıb. Müsabiqənin nəticələrinə görə, Qarabağ tədqiqatları üzrə 3-cü "Şuşa qrantı" müsabiqəsində AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev, dosent Elman Cəfərli, tarix üzrə fəlsəfə doktoru Mehman Şabanov və dosent Emin Şıxəliyevin təqdim etdiyi "Böyük güclərin Azərbaycanla bağlı geosiyasi maraqlarında Naxçıvanın yeri və ermənilər tərəfindən törədilən soyqırımların pərdəarxası" mövzusunda layihə qalib olmuşdur.

Bölmənin əməkdaşları Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun gənc alim və mütəxəssislərin 3-cü qrant müsabiqəsində də fərdi layihələrlə iştirak ediblər. 72 layihənin iştirak etdiyi müsabiqədə AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun böyük elmi işçisi, dosent Nigar Sadıqzadə "Naxçıvan ədəbi mühiti: problemlər və perspektivlər", Bioresurslar İnstitutunun əməkdaşı Günel Seyidzadə "Naxçıvan Muxtar Respublikası florasında yayılan Triticum L. cinsinə daxil olan yabanı taxıl növlərinin toplanması, çoxaldılması və təbii zonalarına reintroduksiyası" layihələri ilə qalib olublar.

Qeyd edək ki, AMEA Naxçıvan Bölməsi indiyədək 12 qrant layihə ilə müsabiqələrdə iştirak edib. 27 nəfər bu layihələrdə qalib olub. Belə ki, bölmənin əməkdaşları "Naxçıvan folklorunun toplanması, elmi tədqiqi və nəşri", "I Kültəpə və onun ətrafında araşdırmalar", "Naxçıvanın toponimlərinin elmi-linqvistik təhlili", "Naxçıvan Muxtar Respublikasının yeraltı sərvətlərindən molibden (VI) oksidin, sürmə (III) sulfidin və farmaseptik təmiz natrium-xloridin yeni alınma metodlarının işlənməsi", "AMEA Naxçıvan Bölməsinin Batabat Astrofizika Rəsədxanası üçün spektrometrik cihazların düzəldilməsi, quraşdırılması, "Seyss-600" teleskopunda sınaq müşahidələrinin aparılması, ixtisaslı elmi-texniki kadrların hazırlanması və spektroskopik tədqiqatların həyata keçirilməsi", "Naxçıvan Muxtar Respublikasında rəsmi dərman bitkilərinin genofondunun müəyyənləşdirilməsi, təbii ehtiyatı bol olan rəsmi dərman bitkilərindən səmərəli istifadə olunması və mühafizəsinin elmi əsasları", "Naxçıvan Muxtar Respublikasının yeraltı sərvətlərindən yüksək temperatura davamlı istilikizolyasiya materialların və seolitlərin alınma metodlarının işlənməsi" layihələri ilə qrant müsabiqələrinin qalibi adını qazanıblar.

**Nərgiz İSMAYILOVA**

*Paytaxt Bakı şəhərindən dəvət olunmuş istedadlı vokal ifaçıları Naxçıvan Dövlət Filarmoniyasında ustad dərsi keçiblər.*

## Ustad dərsi keçilib

Əvvəlcə Naxçıvan Dövlət Filarmoniyasının direktoru, Azərbaycan Respublikasının Əməkdar artisti Elman Əliyev çıxış edərək bildirib ki, artıq bir neçə aydır, muxtar respublikada müxtəlif sahələr üzrə ustad dərsləri keçilir. Bu dərslər gənclərin təhsil aldıqları sahələr üzrə gələcəkdə peşəkar kadr kimi yetişməsinə böyük töhfə olacaq. Elman Əliyev ustad dərsində iştirak edən tanınmış sənət adamları haqqında tədbir iştirakçılarına məlumat verib.

Xalq artisti Samir Cəfərov, Azərbaycan Respublikasının Əməkdar artistləri İlqar Muradov və Cahangir Qurbanov, "Muğam Müsabiqəsi-2013" Televiziya Müsabiqəsinin qalibi Sərxan Bünyadzadə çıxış edərək Naxçıvan torpağının yetirmələri olduqlarını bildiriblər, burada mədəniyyətə, incəsənətə göstərilən qayğıdan danışıblar.



Ustad dərsində muxtar respublikamızda fəaliyyət göstərən uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinin şagirdləri, Naxçıvan Dövlət Universitetinin və Naxçıvan Musiqi Kollecinin tələbələri, Naxçıvan Dövlət Filarmoniyasının solistləri iştirak ediblər.

Tanınmış vokalçılar səs diapazonuna uyğun repertuar seçimi, düzgün tələffüz və vurğu, ifa zamanı tənəffüs orqanlarının fəaliyyətinin düzgün tənzimlənməsi, səhnə mədəniyyəti, jestikulyasiyalardan yerində istifadə ilə bağlı tövsiyələr veriblər.

## Mahnı və Rəqs Ansamblı Şərur rayonunda konsert proqramı ilə çıxış edib



Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblı fəaliyyətə başladığı gündən ciddi yaradıcılıq axtarışları nəticəsində repertuar zənginliyinə nail olub. Fəaliyyət göstərdiyi 50 ildən artıq bir dövrdə ansamblda istedadlı musiqiçilər – müğənnilər, rəqqaslar yetişib.

Muxtar respublikamızda musiqi sənətinin formalaşmasında ansamblın böyük xidmətləri olub. Bu gün böyük bir nəğməli kollektivi birləşdirən ansambl muxtar respublikanın mədəni həyatında fəal iştirak edir. Ansambl müxtəlif tədbirlərdə, bayram şənliklərində çıxışları ilə musiqisevərlərdə xoş ovqat yaradır. Tez-tez muxtar respublikanın rayon mərkəzlərində, kənd yaşayış məntəqələrində qastrolda olan ansambl öz zəngin repertuarı ilə milli musiqimizi və rəqslərimizi təbliğ edir.

Mahnı və Rəqs Ansamblı dünən Şərur Rayon Mədəniyyət Sarayında geniş konsert proqramı ilə çıxış edib. Ansamblın üzvlərinin ifasında xalq və bəstəkar mahnıları, xalq rəqsləri tamaşaçılara təqdim olunub.

Ansamblın üzvlərindən Naxçıvan Muxtar Respublikasının Əməkdar artistləri Hünər Əliyevin, Xatirə Səfərovanın, həmçinin Hüseyn Qasımovun, Samiddin Vəliyevin, Namiq Vəliyevin, Cəfər Tağıyevin, rəqqasə Fatimə Kazımovanın və ansamblın rəqs qrupunun çıxışları tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

**Xəbərlər şöbəsi**

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 842